# Kredo

Müstəqil ictimaisiyasi, publisistik qəzet №75-76 (1253-1254) 19 dekabr 2024-cü il Qiyməti 1 manat

Qəzet 1999-cu ilin oktyabrından çıxır


Azərbaycan milli kitabxanası

## *ZAUR USTAC - 50*

# ADI AĞIL TACI, SÖZÜ GÜL TACI

***Ağıl haqqa güvənsə, başındakı tac gülər,***
***Dağılar dumanlıqlar, günəş adlı saç gülər.***



## DAĞLARDAN GƏLƏN SƏS

### *Şairin 50 yaşına təbrik əvəzi*

Parlaqlığını, duruluğunu, ağıla dolmasını, istedadının gül açmasını görüb, fərəh hissləri keçirdiyimiz gənclər haqqında çox vaxt deyirik ki, gözümüzün qabağında böyüyən uşaqdır.

Doğum tarixinə gözüm sataşmasaydı, heç Zaur Ustacın 50 yaşın qapısını döyməkdə olduğuna yox, döydüyünə də inanmazdım.

Yanvar ayının 8-də Zaur Ustacın 50 yaşı olur. Bakıda doğulub. Amma Ağdamın Yusifcanlı kəndinin orta məktəbində təhsilə başlayıb.

Yaşam yolu qeydlərinə baxıram. Ardıcıl olaraq, BDU-da, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində oxuyub. Bəlkə də bu təhsil ocaqlarının sıralanmasını belə dəqiqliklə verməyin onun şairliyinə heç dəxli yoxdur. Amma dəxli olan başqa məsələ var. Zaur Ustac kimilərinə mən "civə kimi adamdır" deyirəm. Bir yerdə dayanan, duran deyil. Müxtəlif təhsil ocaqlarına can atması da onun görmədiyi aləmlərə səyahət hissindən irəli gəlir. Ümumiyyətlə, Zaur Ustacın təbiətində bir səyyahlıq xasiyyəti açıq-aşkar duyulur.

...Bəlkə də səyyahlığın özündə bir həvəs var, macəraçılıq var. Amma onu Qarabağ müharibəsinə hiss, duyğu, qətiyyətlə deyərdim ki, macəraçılıqdan tam uzaq bir məram aparıb. Özünü oda atmaq, hadisələrin qaynar yerində olmaq təbiətindən gəlmə xasiyyətdir. Vətəndaşlıq duyğusu, vətən sevgisi... bir az yumorlu desək, bir balaca boyu ilə varlığında cəngavərlik təbiəti yaşadan Zaur Ustac I Qarabağ müharibəsində döyüşüb. Yaxşı yadımdadır ki, II Qarabağ savaşının başlayan günün səhəri özünü çağırış məntəqəsinə yetirib "mən də müharibəyə gedirəm" demişdi. Doğrudur, yaşına görə onun "arzusunu gözündə qoydular". Yəni, bu müharibə gənclərin meydanıdır - özü demiş - bəhanəsi ilə.

Təbiətində nə qədər döyüşçü ruhu, ictimaiyyətçi fəallığı olsa da, o, birinci növbədə şairdir, publisistdir. Əlbəttə, onun ədəbiyyatı, sözü təbliğ etməsi, söz adamlarını əziz tutması - əzizləməsi və digər təqdirolunası bir çox cəhətləri var ki, bunların hamısı onun ədəbiyyata, sözə sevgisindən irəli gəlir. Jurnal təsis edib, fəaliyyətdə olan saytı var, müəlliflərə xəbərdarlıq etmədən maraqlı yazıları seçib ədəbi ictimaiyyətə, ümumiyyətlə, geniş oxucu arenasına təqdim etməkdən zövq alır. Beləliklə, "kimdir Zaur Ustac" sualı konkret bir cavab istəyirsə, deməliyik: O, birinci növbədə şairdir, publisistdir, bütün varlığı ilə yaradıcılığa bağlıdır.

**(BAX: SƏHİFƏ 4-ə)**

# DAĞLARDAN GƏLƏN SƏS

**Bəli, qeyd etdim ki, Zaur sözlə, ədəbiyyatla nəfəs alır. 40-a qədər kitabın müəllifidir. Ancaq yenə özü demiş, hələ əsas kitabını yazmağın məqamını gözləyir. Bu gözləmə haləti əslində bütün yazarlara xas olan keyfiyyətdir. Hər birimiz sinəmizə sancılmış yazı arzusunun, yazı istəyinin tikanını nə vaxtsa çıxaracağımızı düşünürük. Amma heç xəbərimiz olmur ki, biz əslində elə sözümüzü deyə-deyə ömür yolu gedirik.** Bu mənada, Zaurun bu günə qədər çap olunmuş kitabları, dəyərli şeirləri, bir sözlə, yaradıcılığı qədərincə təqdir olunan gücdədir. Onun yaradıcılığını bir neçə istiqamətə ayırmaq olar: təbiət gözəlliklərinin təsviri və tərənümü. Ona görə həm də "təsviri" deyirəm ki, bəzən Zaurun təbiət şeirlərində müəllif emosiyasının tərəfkeşliyi hiss olunmur. O, sadəcə mənzərəni göstərir. Bir gözəl çəmənin başının üstündən bulaq çağlayır. Torpağın üstü yaşıl xalıya bürünür, örtüdə qalmaq istəməyən çiçəklər çırtlayıb qönçədən çıxır... Bu qeydlər Zaurun təsvirlərindən aldığı təəssüratın bəhrəsidir. Bəzən də o, dağları, çəmənləri, çölləri vəclə tərənnüm edir. Vurğunluğunu gizlətmir, hətta yeri gələndə "qurbanın olaram, dağlar" da deyir.

Dəfələrlə demişəm, "poeziya nədir" sualı ən müxtəlif cavablarla süslənə bilər. Poeziyaya mistik yanaşma, ilahi vergi payı kimi də baxmaq olar və elə bu cür yanaşanlar da az deyil. Amma birinci növbədə mənə elə gəlir ki, poeziya bənzərsiz anların, təkrarsızlıqların sözə gəlməsidir, sözə gətirilməsidir. O şey ki, bir də olmayacaq, onu ancaq şair görə bilir və şair həmin anı gözünün yaddaşına yığır, ruhuna, varlığına köçürür və poeziyaya gətirir.

Zaurun "Yulğun çiçəyi" adlı bir şeiri var. Yulğun bəlkə də Yerdə həyatın yaranışından günümüzə gəlib çatmış nadir bitkilərdəndir. Kol bitkisidir. Təbiət abidəsi kimi qorunur. Onun bircə qanadını qırmaq belə cinayət məsuliyyəti yaradır. Bu məsuliyyətin nə demək olduğunu Zaur Ustac özünəxas tərzdə müqəddəsliyə çevirir:

Arzular çəhrayı boyanıb bu gün,
Dirəklər günəşlə oyanıb bu gün,
Çiçəklər yollara dolanıb bu gün,
Ana duasıdır Yulğun çiçəyi.

Zənnimcə, elə belə də deməlidir. Axı o özünü çiçəklərin dostu, sirdaşı hesab edir. Günəşin yada salınması təsadüfi deyil. Çöldə Yulğun kollarının Günəşin şüaları altında səhərçağı, yaxud axşamtərəfi necə qızılı tellərlə dalğalandığını görmək insanın ruhunu qidalandırır. Sanki hər Yulğun kolunun özü bir günəş parıltısı yayır. Bütün bunların hamısı Zaur üçün təbiət abidəsinin toxunulmaz olduğuna sübutlardır, qənaətlərdir. Zaur çox şeyi müqəddəs bilir, ona görə də onun qoruqçuluq missiyası sözdə kifayət qədər əsaslıdır. Axı müqəddəslər toxunulmazdır.

Yuxarıda qeyd etmişdim. Zaurun təbiətdən doymazlıq təbiəti var. Onun çölə, çöl təbiətinə, çaylara, göllərə, dağlara güzgü tutan çoxlu şeirləri var. Amma dağlar ünvanlı şeirlərində daha çox ictimai məzmun yer alır. 95-ci ildə Marağada yazdığı "Dağlar" şeiri var.

Ustac bulud kimi dolub ağlamır,
Köksünü yarası qaysaq bağlamır,
Bir bilsən ruhunu nələr çuğlamır,
Nə zaman doğacaq hilalın, dağlar.

Burada iki məqam var. Əlbəttə, hilal Azərbaycan bayrağına işarədir. Aypara anlamı daşıyır. 40-cı illərdə Xalq şairi Rəsul Rza da cənubdakı hadisələrin hilalı nə vaxt gətirəcəyini bədii fonda "Hilal" poemasında verib. Demək, Zaurda da düşüncəsinin hansı qatındansa, mənəvi varislik baş qaldırıb və hilal obrazını mətnə gətirib. Onu da deyək ki, elə Azərbaycanın özündə də, yəni burada da 20 faizdən çox torpaqlarımız işğal altında idi. Həmin torpaqlarda erməni vandallarının kəfəninə çevrilmiş əski parçaları dalğalanırdı. Yəni, Zaur Ustac dağlara üz tutanda da ona ictimai məzmun verir.

Xalqdan gələn ifadələri şeirə uğurla gətirir. Xalq arasında iş bacaran, qoçaq, igid, ağıllı məsləhətlər sahibi olan mərdlərə, oğullara "səni Tur dağı olasan" deyirdilər. Bəli, belələrini xalq Tur dağı adlandırırdı. Tur dağı obrazı ilə süslənmiş "Dağların" adlı şeirini o, 2019-cu ildə yazıb. Əslinə qalsa, dağlar motivli şeirində dağlar obrazı iki qoşa məzmun daşıyır. Biri, bəlkə də, birincisi şairin sinəsində göynəm yeri olan həsrət, hicran dağlarıdır. Vətənin aldığı yaraların obrazı olan dağlardır. Digər dağlar mahiyyəti, əlbəttə, Azərbaycanın təbii gözəlliklərinin qüruru olan dağlardır, Qafqazdır, Şahdağdır, Qarabağ silsiləsidir, Dəlidağdır, Çalbayırdır və s. Zaurun "Dağlar" rədifli şeirlərinin sırasında onun arzularının təntənəsini göstərən daha bir dağlar var.

Tarix səhnəsində yetişdi zaman,
Başlanmış bu çağın mübarək, dağlar!
Hələ nə zəfərlər gözləyir bizi,
Qutlanmış novrağın mübarək, dağlar!

Dövranın gerdişi döndü, dəyişdi,
Davadan doğulan ərlər yetişdi,
Didilmiş yaralar tutdu, bitişdi,
Üç rəngli duvağın mübarək, dağlar!

Nə vaxtdır yol-iriz bağlı qalmışdı,
Qoynunda yağılar məskən salmışdı,
Canımı sağalmaz bir dərd almışdı,
Sayalı qonağın mübarək, dağlar!

Çox maraqlıdır ki, bu "Dağlar" şeirində o, tarixə də ekskurs edir. Azər-



baycanın tarixi, milli qəhrəmanların xatırladır. Və eyni zamanda, II Qarabağ savaşının əfsanəvi oğulları da varisliyin təminatçısı kimi sözdən keçir. Ən başlıcası. Zaur Ustac burada bütün poeziyamız üçün və eləcə də, tariximiz üçün yeni olan bir obrazı sözə gətirir. Bu, dəmir yumruq obrazıdır.

Şair sevinir, duyğulanır. İnanılmazlıqların inama çevrilməsindən kam alır. Bir sözlə, onun arzuları, duyğuları çiçəklənir:

Xətai qırınadı könül bağını,
Nadir unutmadı hicran dağını,
İlhamın silahı əzdi yağını,
Dəmirdən yumruğun mübarək, dağlar!

Qurtuldu yağıdan zənburun, balın,
Bir başqa görünür yamacın, yalın,
Zirvəndən boylanır şanlı hilalın,
Müqəddəs sancağın mübarək, dağlar!

Zaur ədəbiyyatımızı sevən, bilən sənətkardır. Özü demiş, bütün təbiət gözəlliklərinin tərənnümü zamanı Dirili Qurbani, Xəstə Qasım, Abbas Tufarqanlı, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər şəcərəsinin qızıl zəncirini vəsf etməkdən məmnunluq duyur. Onun sələflərinə sevgisini və bu sevgidən vəcdə gəlməsini, əlbəttə, biz də təqdir edirik:

Haqqa nisbət tutub ulu Ələsgər,
Andırıb, tanıdıb, bilib pərisgar,
Hər səngər məbəddi, pirdi hər əsgər,
Şuşa tək ocağın mübarək, dağlar!

Ay Ustac, min şükür arzuna yetdin,
"Dədə"n gedən yolu, sən də qət etdin,
Dolandın dünyanı yurdunda bitdin,
Doqquzu zər tuğun mübarək, dağlar!

Vətəni, yurdu sevdirmək üçün şair birinci növbədə elə onun təbiət gözəlliklərini vəsf etməlidir. Bu "Dağlar" şeirini o, 2021-ci ilin əvvəlində yazıb. Yəni, II Qarabağ savaşında qələbədən iki ay sonra. Bəlkə də, bu şeiri ilə o, yuxarıda sadaladığımız qızıl zəncir boyu adları görülən dədələrə mənəvi borcunu qaytarır.

Zaur Ustacın təbiəti vəsf edən şeirləri onun ruhunun səsi kimi qavranılır. Hətta bir çox hallarda şeir özü canlı varlıq kimi oxucu ilə ünsiyyətə girir. Və oxucu istər-istəməz şairin yaratdığı obrazlara bağlanmış olur.

Onun istər təbiət təsvirlərinə, istərsə də, sevgi şeirlərinə güzgü tutan müəlliflər birinci növbədə səmimiyyətini qeyd edirlər. Xüsusilə Vaqif Yusifli Zaur Ustacın fərdi üslubunu xarakterizə edə biləcək şeirlərinə münasibət bildirir. Onun vətən qəhrəmanı Xudayara həsr olunmuş sonetindən son misraları nümunə gətirir:

Şəhidlik köynəyi geydin əyninə,
Düşməni almadın heç vaxt eyninə,
Qartaltək uçduğun zirvəyə döndün.

Səsindən qələbə təri ələndi,
Zəfər sevincinə torpaq bələndi,
Vətəndə əbədi nəğməyə döndün.

Biz bu qeydləri yazanda Zaurun şeirlərinin motivinə uyğun olaraq "Dağlardan gələn səs" başlığını daha uyğun bildik. Bu hansı səsdir? Birinci növbədə bu elə Zaurun özünün bir vaxt arzu kimi, istək kimi özündən ayrılıb dağlarda qalmış səsidir. Xudayarın səsi ilə onun timsalında vətən oğullarının səsi ilə qovuşaraq təzədən Zaur Ustacın özünə qayıtmış səsdir. Onun vətən qəhrəmanı Xudayara həsr olunmuş və onun timsalında bütün qəhrəmanların taleyinə güzgü tutan şeirlərini diqqətə çəkərkən Vaqif Yusifli yazır: "*Bu yazıda Zaur Ustacın bir sıra şeirlərinin adını çəkə bilərik ki, bu şeirlər onun fərdi üslubu barədə müəyyən təsəvvür yaradır. Fikrimizcə şairin təbiətə, onun ayrı-ayrı fəsillərinə və gözəlliklərinə həsr etdiyi şeirlər daha uğurludur. Hiss olunur ki, Zaur Ustac təbiəti yaxşı duyur. Təbiətlə insan arasındakı vəhdəti də şeirlərinə gətirir. Eləcə də, Zaur Ustacın vətən qəhrəmanlarına həsr etdiyi şeirləri də qədərincə təqdirə layiqdir*". Görkəmli ədəbiyyatşünas alim Qurban Bayramov da "Poeziyamızın taclı şairi" adlı geniş və əhatəli yazısında Zaur Ustacın bir şair kimi formalaşma, yetişmə mərhələlərini ayrıca təhlilə çəkir. Onun poetik boyartımını əsərlərindən gətirdiyi nümunələr əsasında bütün aydınlığı ilə göstərir.

Tənqidçi ədəbiyyatşünas Qurban Bayramov da Zaur Ustacı bir ictimai fəal, vətən sevdalı bir şair kimi xarakterizə edir. Ümumiyyətlə, Zaur Ustac ədəbiyyatşünas alimlər, tənqidçilər, publisistlər tərəfindən həmişə diqqətə alınıb. Onun poetik yaradıcılıq fonunda söz uğrunda mübarizəsi şairliyinin etirafı kimi təqdir olunub. Zaur yazmaqdan, yaratmaqdan yorulan müəllif deyil.

Z.Ustacın yaradıcılığında sevgi motivli şeirlər də üstünlük təşkil edir. Xüsusilə onun "Sevgi dolu şeirlər" (2024) adlı kitabında özünün sevgi ruhunu ifadə imkanları kifayət qədər aydın görünür. Zaur sevgisində çox səmimidir. Hətta bəzi şeirlərində o, sevgi nəğmələrini pıçıltılar kimi oxuyur. Onun "Gedə bilərsənsə, get" adlı maraqlı bir şeiri var. Poetik obraların yeniliyi, ən başlıcası, iki sevən qəlb arasındakı səmimyyət duyğularının həyatiliklə təsviri diqqəti cəlb edir: "*Gedirsən, get, ancaq elə, get ki, arxanca izin qalmasın, bütün olub - keçənləri, özünlə apar! Yox əgər, sən getsən, bütün bunlar, (olub-keçənlər) qalsa, mənimlə döyünməz ürəyim, damarda qan donar! Getmək istəyirsən, elə, get ki, qəlbimdə yerin qalmasın, hər nə var, yaddaşımdan sil, apar! Qəlbimdə qaladığın , O, "ocağın" közü nə, külü də qoyma qala, o, "ocağın" yerini ürəyimdən, dart, qopar! Sən gedəndən sonra, elə, olmalıdır ki, sanki, heç nə olmayıb, nə, sən məni sevmisən, nə, mən səni görmüşəm... Tamam yad adamlarıq... Sonra məni görəndə, yanımdan düz keçəsən... Necə, başqalarının yanından ötdüyün tək, utanmadan, çəkinmədən, qorxmadan - vicdanın töhmətindən. Heç nə olmayıbmış tək, Heç nə xatıtlamadan... (bu, mümkünmü görəsən?) Əgər, bacarırsansa, bax beləcə, çıxıb, get... Nə sən xatırla məni, Nə mənim yadıma düş!*".

Əlbəttə, ümumiyyətlə, ayrılıqlar zamanı tərəflərdən birinin istəyinin əksinə olaraq getməyi, digərinin də istəyinin əksinə olaraq "get" deməsi, həmişə şairləri düşündürüb, həmişə bu qarşılıqlı ziddiyyət məqamı məhəbbətdən yazan şairlərin mövzusuna çevrilib.

Zaur Ustacın çoxlu sayda kitablarının adlarını çəkmək olar. Uşaqlar üçün yazdığı nağıllar, ssenarilər, şeirlər, poemalar aşağı sinif şagirdlərinin, eləcə də, məktəbəqədər yaşda olan uşaqların təlimi zamanı yardımçı vasitələr kimi istifadə olunur. Lirikası müğənnilər tərəfindən nəğmələrə çevrilir. Ən müxtəlif məqamlarda biz şeirlərinə bəstələnmiş mahnıları məmnunluqla dinləyirik. "Günaydın", "Mum kimi yumşalanda", "Məhdud həyatın məhcul düşüncələri", "İstəməzdim şair olum hələ mən", "Gülzar", "Şeh çiçəyim", "Gülünün şeirləri", "Balçiçəyim", "Bayatılar", "Sevin ki, sevilәsiniz"... və bu siyahını hələ çox uzatmaq olar. Bütün bu kitabarın hamısında Zaur Ustacın sevən, söz üçün, sənət üçün döyünən ürəyinin səslərini eşitmək mümkündür.

Dağlardan gələn səs, biz artıq başlığa çəkdiyimiz bu ifadənin açıqlamasını verdik. Bu səs ana yurdun ağrılar görmüş, acılar çəkmiş dağları ilə onun doğma övladı, şair arasında bir körpü olub. Əslində şair ruhən heç vaxt o dağlardan ayrılmayıb.

Dağlardan gələn səs... bu da şairin 50 yaşına təbrik əvəzi onun öz şeirləri əsasında sözə gələn duyğulanmalardır.

...Sözü yaşayanın özü yaşayar.

***Əli Rza XƏLƏFLİ***
***18.12.2024***